2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 sentyabr 2015-ci il tarixli 19 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 2 oktyabr 2015-ci il

2015-ci il sentyabrın 30-da Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Ağa-zadə İqbal Feyruz oğlu Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, namizədliyi 95 saylı Tərtər seçki dairəsi üzrə Ümid Partiyası tərəfindən irəli sürülmüş Məmmədova Tamilla Famil qızının namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə namizədin pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində ərizədə göstərildiyi kimi imza vərəqələrinin və qeydiyyat üçün zəruri sənədlərin yoxlanılması, dairə seçki komissiyasının iclasında iştiraka dəvət edilməməsi, habelə, işçi qrupunun imzaların yoxlanılmasının nəticələrinə dair protokolunun ona verilməməsinə dair iddialar öz təsdiqini tapmamışdır. Belə ki, dairə seçki komissiyasının işçi qrupunun müvafiq iclasında namizəd T.F.Məmmədova iştirak etmiş, işçi qrupu protokolunun və seçici imzalarının yoxlanılmasının nəticələri barədə cədvəlin surəti, habelə ekspert qrupu üzvünün rəyi ona təqdim edilmişdir.

Eyni zamanda dairə seçki komissiyasının ümumilikdə etibarsız hesab etdiyi 169 seçici imzaları Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən yoxlanılaraq 122 seçici imzasının etibarsız olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün azı 450 seçici imzası onun irəli sürüldüyü seçki dairəsinin ərazisində toplanılmalıdır.

Yuxarıda qeyd edilən əsaslara görə toplanmış 550 seçici imzasından 122-si etibarsız hesab edildiyi və qalan seçici imzalarının sayı qeydiyyat üçün lazım olan saydan az olduğu üçün Seçki Məcəlləsinin 59.12-ci maddəsinin tələbinə uyğun olaraq, o, namizəd kimi qeydə alınmamalıdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasının T.F.Məmmədovanın namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 28 sentyabr 2015-ci il tarixli 10/78 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Ağa-zadə İqbal Feyruz oğlunun 30 sentyabr 2015-ci il tarixli 19 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və namizədliyi 95 saylı Tərtər seçki dairəsi üzrə Ümid Partiyası tərəfindən irəli sürülmüş Məmmədova Tamilla Famil qızının həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının 28 sentyabr 2015-ci il tarixli 10/78 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü — Validə Kazımova